SEÇKİLƏRİN MONİTORİNQİ
SMDT
DEMOKRATİYANIN TƏDRİSİ

Azərbaycanda seçki prosesinin təkmilləşdirilməsi üzrə tövsiyyələrinin icra vəziyyətinə dair

Dəyərləndirmə Hesabatı

I. Xülasə

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda seçki qanunvericliyi və təcrübəsinin təkmilləşdirilməsi, əlverişli seçki mühitinin yaradılması ilə bağlı Avropa Şurası və ATƏT standartları əsasında islahatların aparılmasını zəruri sayaraq, bu qurumların irəli sürdüyü seçki tövsiyyələrinin icrası ilə bağlı vəziyyəti dəyərləndirib.

SMDT-nin hazırladığı Dəyərləndirmə Hesabatında Azərbaycanda 9 oktyabr 2013-cü ildə keçirlmiş prezident seçkisi və ondan öncəki seçkilərlə bağlı ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun tövsiyyələri, Avropa Şurası Venesiya Komissiyasının rəyləri və Avropa İnsan Hüquqları Məhkəməsinin seçki şikayətləri üzrə qərarlarına istinad edilib. Hesabatda 2002-ci ildən başlayaraq, beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanda seçki prosesinin inkişafı ilə bağlı irəli sürülən tövsiyyələrin başlıca istiqamətləri sadalanıb və bu istiqamətlərdə müşahidə olunan geriləmə dəyərləndirilib. Bununla belə ATƏT/DTİHB-in Seçki Müşahidə missiyası tərəfindən 9 oktyabr 2013-cü il prezident seçkisi üzrə Yekun hesabatı yaxın 5 il ərzində ən son və kompleks tövsiyələr olduğundan daha geniş nəzərdən keçirilib.

Hesabatda əlverişli və demokratik seçki müşhitinin yaradılması ilə bağlı ATƏT/DTİHB-in irəli sürdüyü tövsiyyələrdən biri kimi ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqları sahəsində mövcud olan hüquqi və praktiki maneələrin aradan qaldırılması ilə bağlı vəziyyət dəyərləndirilib. SMDT təəsüflə qeyd edir ki, hökümət internetdə ifadə azadlığını məhdudlaşdıran bir sıra addımlar atıb. Məsələn, 2017-ci ilin martında parlament internet saytlarını bloklamağa imkan verən qanuna düzəliş edib. Bu düzəlişlə hökümətə və məhkəmələrə internet saytlarını bloklamaq üçün qeyri-məhdud səlahiyyətlər verilib.[1] Bununla yanaşı parlament toplantıların keçirilməsinə dair cinayət və inzibati sanksiyaları qeyri-mütənasib qaydada sərtləşdirib və toplanış qaydalarının pozulması 3 ay müddətinə qədər həbs sanksiyası və yüksək məbləğdə cərimələrədək artırılıb.[2] 2013-cü ilin sonundan başlayaraq, Azərbaycanda QHT-lərin fəaliyyətinə qadağalar artırılıb və Baş Prokurorluq QHT-lərin fəaliyyəti ilə bağlı bir neçə cinayət işi başlayıb, onlarla QHT-nin bank hesabları dondurulub, QHT funksionerlərinin ölkədən çıxışına məhdudiyyət qoyulub. Bundan əlavə, Parlament qanun düzəlişləri edərək QHT-lərin əsas maliyyə mənbəyi olan xarici maliyyələşməni çətinləşdirib və bununla da QHT-lərin fəaliyyəti faktiki olaraq iflic olub.

SMDT Azərbaycanda seçkilər üzrə beynəlxalq tövsiyələrin icra vəziyyətinin dəyərləndirilməsini ümumiləşdirərək, hazırda Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi üçün səmərəli seçki qanunvericiliyi və praktikasının mövcud olmadığını, bunla bağlı siyasi hakimiyyətin siyasi iradə nümayiş etdirmədiyini müəyyən edib.

SMDT hesab edir ki, Azərbaycanda seçkilər üzrə beynəlxalq tövsiyələrin icrası yönündə siyasi hakimiyyəti seçki qanunvericiliyinin təkmilləşdirilməsi üzrə maraqlı siyasi tərəflərin və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə ictimai müzakirələr və hüquqi təşəbüsləri dəstəkləməlidir. Eyni zamanda 2018-ci il prezident seçkilərinədək əlverişli siyasi mühitin yaradılması üçün ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək hüququ üzrə hüquqi-siyasi məhduiyyətlərin aradan qaldırılması, fərqli siyasi baxışlarına görə təqiblərin dayandırılması və siyasi motivlərlə həbs olunan şəxslərin azad edilməsi vacibdir.

[1] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun - http://www.meclis.gov.az/?/az/legislation/view/3548

[2] İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər (mart, 2016) http://e-qanun.az/code/24

Avropa Şurası Baş Katibi, Avropa Şurası Parlament Asambleyası və Avropa Şurası Nazirlər Komitəsi Avropa Şurası Venesiya Komissiyasının tövsiyyələri və Avropa İnsan Hüquqları Məhkəməsinin seçki hüququ pozuntuları üzrə qərarlarının icra vəziyyətini araşdırmalı və Azərbaycan hakimiyyətinə seçki prosesində islahatlarla bağlı təzyiq etməlidir.

ATƏT-in Nazirlər Şurası, ATƏT Parlament Assambleyası və ATƏT-in Daimi Şurası ATƏT/DTİHB-in Seçki Müşahidə Missiyaları tərəfindən 2003-2013-cü illərdə keçirilmiş seçkilər üzrə tövsiyyələrin icra vəziyyəti ilə bağlı xüsusi dəyərləndirmə aparmalı və Azərbaycan hakimiyyətinin ATƏT/DTİHB ilə əməkdaşlığına səy göstərməlidir.

Avropa Komissiyası və Avropa Parlamenti Azərbaycanda seçki prosesinin təkmilləşdirilməsi məqsədilə Avropa Şurası Venesiya Komissiyası və ATƏT/DTİHB tərəfindən irəli sürülmüş tövsiyyələrin icra vəziyyətini qiymətləndirməli və bunu Azərbaycan hakimiyyəti ilə ikitərəfli müzakirələrdə prioritetə çevirməlidir.

Bu sənəd Azərbaycan rəsmi dövlət orqanları, seçki komissiyaları, paralment üzvləri, siyasi partiyalar, QHT-lər, o cümlədən Avropa Şurası və ATƏT-in müxtəlif strukturları, beynəlxalq seçki ekspertləri və media təmsilçiləri üçün hazırlanıb.

SMDT Azərbaycanda 2001-ci ildən başlayaraq, azad və ədalətli seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır

II. Giriş

SMDT Azərbaycan Respublikasında 9 oktyabr 2013-cü ildən sonra keçirilmiş iki seçkinin (dekabr, 2014-cü il bələdiyyə seçkiləri və noyabr, 2015-ci il parlament seçkiləri) beynəlxalq seçki müşahiədçiləri tərəfindən geniş və əhatəli şəkildə izlənilmədiyini[3], o cümlədən son 4 il ərzində seçkilərlər üzrə tövsiyyələrin icrası ilə bağlı yerli və beynəlxalq səviyyəli ictimai müzakirələrin keçirilmədiyini nəzərə alaraq, seçki prosesinin önəmli istiqamətləri üzrə tövsiyyələrin icrası üzrə dəyərləndirmə aparıb. Bu dəyərləndirmə sənədi hazırlanarkən Azərbaycan Respublikasının azad və ədalətli seçkilər üzrə qoşulduğu beynəlxalq öhdəliklər, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Avropa Şurası Venesiya Komissiyasının tövsiyyələrinə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına istinad edilib.

Bu sənəd Azərbaycan rəsmi dövlət orqanları, seçki komissiyaları, paralment üzvləri, siyasi partiyalar, QHT-lər, o cümlədən Avropa Şurası və ATƏT-in müxtəlif strukturları, beynəlxalq seçki ekspertləri və media təmsilçiləri üçün hazırlanıb.

Metodologiya
Sənəd hazırlanarkən Azərbaycanın beynəlxalq hüquqi öhdəliyi kimi seçki hüququnun təmin edilmsi ilə bağlı Sivil və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 25-ci maddəsi və Avropa İnsan Hüquqları Konvensiyasına Əlavə 1 saylı Protokolun 3-cü maddəsi, o cümlədən ATƏT-in Kopenhagen sənədinin müddəaları əsas götürülüb. Hesabatın hazırlanmasında həmçinin seçki hüququ ilə əlaqədar aşağıdakı hüquqi və praktiki mənbələrinə istinad edilib:

- Azərbaycan Respublikası Konstitusiyası;
- Azərbaycan Respublikası Seçki Məcəlləsi;
- Avropa Şurası Venesiya Komissiyasının Seçki Məsələləri Müsbət Təcrübə Məcəlləsi (2002);
- Avropa Şurası Venesiya Komissiyası və ATƏT/DTİHB-in Azərbaycanın seçki qanunvericiliyinə dair birgə tövsiyyələri və təhlilləri:
- ATƏT/DTİHB-in 2005-2013-cü illərdə Azərbaycanda keçirilmiş parlament və prezident seçkiləri üzrə yekun hesabatları;
- ATƏT/DTİHB-nin Seçki Tövsiyyələrinin araşdırılması üzrə qaydaları
- AİHM Azərbaycan seçki işləri üzrə qərarları (aşağıda ətraflı istinad edilir);
- AŞ NK-nin seçki işləri üzrə icra icraatının qərarları (aşağıda ətraflı istinad edilir).

Hesabatda yalnız prezident və parlament seçkiləri ilə bağlı müddəalar və məsələlər şərh edilir. Referendum və bələdiyyə seçkiləri ilə bağlı məsələlərə toxunulmur.

Hesabatın seçki qanunvericliyi üzrə tövsiyyələr bölməsi hazırlanarkən 30 iyun 2003-cü ildə qüvvəyə minən Seçki Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı Avropa Şurası Venesiya Komissiyası və ATƏT/DTİHB-in birgə tövsiyələri yenidən nəzərdən keçirilib. Araşdırma göstərir ki, 2002-2008-ci illərdə Venesiya Komissiyası və ATƏT/DTİHB birlikdə Seçki Məcəlləsi ilə bağlı 6 dəfə birgə tövsiyələr veriblər. Bu tövsiyyələr Seçki Məcəlləsinin layihəsi ümumi təhlil və maddə-maddə qiymətləndirmədən, seçki komissiyalarının ədalətli qaydada formalaşması və paralment tərəfindən Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə dair rəy və təkliflərdən ibarətdir.

Araşdırma zamanı Azərbaycanda 2005-2013-cü illərdə keçirilən parlament və prezident seçkiləri zamanı ATƏT/DTİHB tərəfindən təşkil olunan Uzunmüdətli seçki misisyalarının yekun rəyi və tövsiyyələri öyrənilib və son 10 ildən artıq dönəm üzrə müqayisəli təhlili aparılıb. Bu rəylərdə seçki

[3] 1995-ci ildən bəri Azərbaycanda keçirilən bütün seçkiləri müşahidə edən ATƏT-in Demokratik Təsisatlar və İnsan hüquqları Bürosu 1 Noyabr 2015-ci ildə keçirilən seçkiləri müşahidə edə bilməyib. Daha ətraflı - http://www.osce.org/odihr/elections/azerbaijan/181611

qanunvericliyi ilə bağlı Seçki Məcəlləsinin azad və ədalətli seçkilərin keçirilməsini təmin etməkdə yetərsiz olduğu, habelə seçki komissiyalarının fəaliyyəti, seçici siyahılarının vəziyyəti, namizədlərin qeydiyyatı, seçkiqabağı təşviqatın təşkili və səsvermə prosesi üzrə çatışmazlıqlar yer alır.

Hesabatda araşdırılan digər məsələ 2005-ci il və 2010-cu il parlament seçkilərinin keçirilməsi və nəticələri ilə bağlı bəzi deputatlığa namizədlərin Avropa İnsan Hüquqları Məhkəməsinə fərdi şikayətləri üzrə verilmiş qərarlar olub. AİHM şikayətlərin əksəriyyəti üzrə pozuntu qərarı, bəziləri üzrə isə Hökümət pozuntunu etiraf edib yaxud dostcasına həll vasitəsilə işlər yekunlaşdırılıb.

Əksər işlər[4] üzrə AİHM müəyyən edib ki, seçki komissiyaları və daxili məhkəmələr əsassız qaydada və qərarlarını əsaslandırmadan və (və ya) səmərəli hüquqi müdafiə vasitələrini təmin etməyən icraat vasitəsilə aşağıdakı pozuntulara yol veriblər:

- *Seçki qanunvericiliyin pozuntusunu və ya seçkilərə dair faktual pozuntuları iddia edən şikayətləri rədd ediblər;*
- *Namizədlərin qeydiyyatını rədd ediblər yaxud namizədlərin seçilməsinə dair nəticələri ləğv ediblər;*
- *Konstitusiya Məhkəməsi müəyyən ərizələrin qalib gəldikləri seçki dairələrindəki nəticələri kafi və müvafiq əsaslar olmadan, məhkəmə araşdırmasında iştirak etmək imkanı daxil olmaqla tərəflərin prosessual təminatlarına şərait yaratmadan və qeyri-şəffaf yolla ləğv edib.*

AİHM seçki komissiyalarının qərarları üzrə əlahiddə olaraq aşağıdakı pozuntuları müəyyəndləşdirib:

- *Ərizəçilərin şikayətləri və təqdim etdikləri dəlillər heç bir əsaslandırma aparılmadan rədd edilib;*
- *Ərizəçilərin əleyhinə olan şahid ifadələri və izahatları, onların həqiqiliyi və mötəbərliyi lazımi qaydada yoxlanılmadan olduğu kimi qəbul edilib;*
- *Namizədlərin qeydiyyatı yaxud namizədlərin seçki nəticələri ləğv edilərkən qəbul edilən qərarlarda heç bir müstəqil yoxlama və əsaslandırma aparılmayıb;*
- *Ərizəçilərin araşdırmada iştirakı təmin edilməyib.*

a) Qəhrəmanlı və başqaları işi (2011) üzrə AİHM qeyd edib ki, namizədlər tərəfindən verilmiş fərdi şikayətlərin araşdırılmasının səmərəliliyini artırmaq məqsədilə cavabdeh Dövlət seçki komissiyalarının struktural tərkibinə dair islahat keçirilməsinə dair təşviq edilməlidir.

AİHM daxili məhkəmələrin qərarları ilə əlaqədar ələlxüsus aşağıdakı çatışmazlıqların olduğu nəticəsinə gəlib:

- *Təqdim edilmiş dəlillərin araşdırılmasından imtina edilməsi və mübahisəli məsələlərin aydınlaşdırılması üçün xidməti vəzifəsinə uyğun olaraq tədbirlər görülməməsi və icraatın həddən ziyadə formalizmlə həyata keçirilməsi;*
- *Seçki komissiyaların nəticələrinin olduğu kimi avtomatik təkrar edilməsi;*
- *Ərizəçilərə öz müdafiələrini hazırlamaq üçün kifayət qədər vaxt verilməməsi;*
- ***Seçki qanunvericiliyinin tətbiqində səhvə yol verilməsi.***

[4] Bu işlər üçün Avropa Şurası Nazirlər Komitəsinin nəzarətində olan Namət Əliyev qrup işi (22 iş): http://hudoc.exec.coe.int/eng?i=004-1773 [Accessed 14 August 2017] Bu işlərə aşağıdakılar aiddir: Əbil Azərbaycana qarşı (2006); Ənnağı Hacıbəyli Azərbaycana qarşı (2011); Aslan İsmayılov və başqaları Azərbaycana qarşı (2011); Atakişi Azərbaycana qarşı (2006); Bağırov və başqaları Azərbaycana qarşı (2011); Qasımlı və başqaları Azərbaycana qarşı (2011); Qaya Əliyev və başqaları Azərbaycana qarşı (2011); Hacılı Azərbaycana qarşı (2006); Kərimov Azərbaycana qarşı (2006); Kərimli və Əlibəyli Azərbaycana qarşı (2006); Kərimova Azərbaycana qarşı (2006); Xanhüseyn Əliyev Azərbaycana qarşı (2006); Məmmədli Azərbaycana qarşı (2006); Məmmədov Azərbaycana qarşı (No.2) (2006); Orucov Azərbaycana qarşı (2006); Səmədbəyli və başqaları Azərbaycana qarşı (2011); Şükürov Azərbaycana qarşı (2011); Soltanov və başqaları Azərbaycana qarşı (2011); Tahirov Azərbaycana qarşı (2011).

Avropa Şurası Nazirlər Komitəsi AİHM-in yuxarıda qeyd edilən seçki qərarları ilə bağlı 2013-cü ilin sentyabrında xüsusi icraata başlayıb. Komitə hesab edir ki, Azərbaycandakı seçki pozuntuları kompleks məsələdir, seçki komissiyaları və məhkəmələr hüquqların əsassız məhdudlaşdırılmasına qarşı səmərəli hüquqi müdafiə vasitələri olmadığından hökümətdən bununla bağlı tədbirlər həyata keçirməlidir.[5]

Təşkilat barədə

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır.

SMDT qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) təsisçiləri və üzvləri tərəfindən yenidən təsis edilib. Qeyd edək ki, 24 iyul 2001-ci ildə təsis olunmuş SMM-nin qeydiyyatı 14 may 2008-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qanunsuz iddiası əsasında Xətai rayon məhkəməsi tərəfindən ləğv edib.

SMM 2001-2013-cü illərdə Azərbaycanda keçirilən referendum, prezident, bələdiyyə və parlament seçkilərini müşahidə edib.

SMDT üzvləri Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Demokratik Seçkilər üzrə Avropa Platforması (EPDE) və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Müşahidə Missiyaları tərkibində ATƏT-ə üzv ölkələrdə keçirilən seçkiləri müşahidə ediblər.

III. Seçki tövsiyələrinin icra vəziyyəti

SMDT Azərbaycanda seçki prosesinin mühüm aspektləri üzrə beynəlxalq təşkilatların tövsiyyələrini ümumiləşdirərək, onların icrası ilə bağlı vəziyyətin dəyərləndirilməsini aparıb. Ancaq ATƏT/DTİHB-in Seçki Müşahidə missiyası tərəfindən 9 oktyabr 2013-cü il prezident seçkisi üzrə Yekun hesabatı yaxın 5 il ərzində ən son və kompleks tövsiyələr olduğundan daha geniş nəzərdən keçirilib.

1. İfadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlığı üzrə milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması

Tövsiyyə:

Milli qanunvericiliyin beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması naminə toplaşmaq, ifadə və birləşmək azadlığı üzrə mövcud hüquqi çərçivə nəzərdən keçirilməlidir. Mövcud qanunvercilik və tələb olunan dəyişikliklərlə əlaqədar məsləhələşmələr ictimaiyyətin iştirakı ilə bütün maraqlı tərəflərin iştirakı ilə təşkil olunmalıdır.

İcra vəziyyəti:

İfadə azadlığı sahəsində mövcud olan hüquqi və praktiki maneələr aradan qaldırılmayıb. Belə ki, AİHM-in Fətullayev qərarının, eləcə də Mahmudov və Ağazadə qərarının icrası ilə əlaqədar AŞ

[5] AŞ Nazirlər Komitəsinin 1179 saylı toplantısı, 24-26 sentyabr 2013 - http://hudoc.exec.coe.int/eng?i=CM/Del/Dec(2013)1179/2

Nazirlər Komitəsi hökumətin üzərinə diffamasiya qanunlarını dəyişmək öhdəliyi qoyub.[6] Bu öhdəliyə əsasən hökümət diffamasiyanı dekriminalizasiya etməli və mülki diffamasiya ilə bağlı aydın müddəalar müəyyən etməlidir. Ancaq hökümət yeni diffamasiya qanunu qəbul etməyib və bu istiqamətdə atılan bütün addımlar yığışdırılıb. Əksinə hökümət internetdə ifadə azadlığını məhdudlaşdıran bir sıra addımlar atıb. Əvvəl, məxsusi olaraq (expressis verbis) internet diffamasiyası, daha sonra isə internetdə, ələlxüsus sosial şəbəkələrdə yazılan anonim şərhlərdə diffamasiya halları kriminallaşdırılıb.[7]

2017-ci ilin martında isə Parlament internet saytlarını bloklamağa imkan verən qanuna düzəliş edib. Bu düzəlişlə hökümətə və məhkəmələrə internet saytlarını bloklamaq üçün qeyri-məhdud səlahiyyətlər verilib.[8] Beləliklə, 2013-cü ildən sonra ifadə azadlığı sahəsində yeni hüquqi məhdudiyyətlər gətirilib. Bu hüquqi məhdudiyyətlər əlavə praktik sahədə də vəziyyət pisdir. İnternetdə, xüsusən də sosial şəbəkələrdə hökümәti və yüksək siyasi rəsmiləri, o cümlədən Prezident ailəsini tənqid edən şəxslərə qarşı hüquq-mühafizə orqanları tərəfindən digər bəhanələrlə (narkotik, xuliqanlıq, polisə tabe olmama və s) cinayət və inzibati xəta işləri başlanır və bu çərçivədə tənqidçilərin azadlıqdan məhrum edilməsi davam edir.

Sərbəst toplaşmaq azadlığı sahəsində də köhnə çətinliklərlə yanaşı yeniləri də meydana çıxıb. Yerli icra başçıları şəhərin münasib yerlərində toplantı keçirməyə icazə verməməyə davam edirlər. Bunun əvəzinə toplantı üçün ucqar və əlverişsiz yerləri təklif edirlər. Bundan əlavə, Parlament toplantıların keçirilməsinə dair cinayət və inzibati sanksiyaları qeyri-mütənasib qaydada sərtləşdirib. Xüsusilə yeni inzibati sanksiyalarla inzibati xəta kimi toplanış qaydalarının pozulması 3 ay müddətinə qədər həbs sanksiyası və yüksək məbləğdə cərimə ilə nəticələnir.[9]

Son 4 ildə Birləşmə azadlığına qoyulan məhdudiyyətlət ifadə və toplanış azadlıqlarına qoyulanlardan daha dramatik olub. 2013-cü ilin sonundan başlayaraq, Azərbaycanda QHT-lərin fəaliyyəti de facto qadağan edilib. İlk növbədə, Baş Prokurorluq QHT-lərin fəaliyyəti ilə bağlı bir neçə cinayət işi başlayıb və bu cinayət işləri çərçivəsində bir neçə mühüm QHT funksioneri həbs edilib, onlarla QHT-nin bank hesabları dondurulub, QHT funksionerlərinin ölkədən çıxışına məhdudiyyət qoyulub, QHT-lərin ofislərində axtarış və götürmələr aparılıb. Bundan əlavə, Parlament qanun düzəlişləri edərək QHT-lərin əsas maliyyə mənbəyi olan xarici maliyyələşməni həddən ziyadə çətinləşdirib və bu cür maliyyələşməni Ədliyyə nazirliyinin mülahizəsindən asılı edib. Bu düzəlişlə QHT-lərin fəaliyyəti faktiki olaraq iflic olub. Həmçinin Parlament QHT-lərin hesabatlılığına dair inzibati sanksiyaları sərtləşdirib.[10] Bu düzəlişlər Ədliyyə nazirliyinə QHT-ləri yoxlamaq üçün qeyri-məhdud səlahiyyətlər verib. Bundan əlavə, QHT-lərin qeydiyyatı sahəsində problemlər qalmağa davam edir. Ədliyyə nazirliyi əsassız olaraq QHT-ləri qeydiyyata almaqdan imtina etməyə davam edir.[11]

[6] AŞ Nazirlər Komitəsi, Mahmudov və Agazadə Azərbaycana qarşı- http://hudoc.exec.coe.int/eng?i=004-1709
[7] Cinayət Məcəlləsinə əlavələr (may 2013 və noyabr 2016), Maddə 147, 148 və 148-1 http://e-qanun.az/code/11
[8] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun - http://www.meclis.gov.az/?/az/legislation/view/3548
[9] İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər (mart, 2016) http://e-qanun.az/code/24
[10] SMDT-nin araşdırma sənədi – http://smdtaz.org/az/siyasi-huquqlar/birl%C9%99sm%C9%99ks%C9%99rb%C9%99st-toplasmaq-azadligi
[11] Hazırda AİHM qarşısında Ədliyyə Nazirliyinin QHT-lərin qeydiyyatından imtinası ilə bağlı kommunikasiya mərhələsində olan 50-dək belə şikayət var. http://hudoc.echr.coe.int

2. Seçki qanunvericiliyin hüquqi texnikası

Tövsiyyə:

Hüquq normaları birmənalı xarakter daşımalı, anlaşıqlı olmalı və mümkün qədər sadə dildə olmalıdır. Hazırkı Seçki Məcəlləsi[12] çox mürəkkəbdir və onun istifadə etdiyi ifadələr bir sıra hallarda anlaşıqlı deyil[13] və Seçki Məcəlləsi sadələşdirilməlidir.[14]

İcra vəziyyəti:

Hazırda Seçki Məcəlləsində seçki hüququn müddəaları bütün ölkə vətəndaşlarına seçki qaydalarını daha yaxşı anlamağa imkan vermir və qanunun yazı üslubu yalnız ölkədə az sayda mütəxəsis üçün anlaşılan formadadır. Bundan əlavə, Seçki Məcəlləsində çoxlu sayda təkrar hüquq normaları var. Seçki Məcəlləsi Ümumi və Xüsusi hissələrdən ibarət olsa da, Xüsusi hissədə Ümumi hissədə göstərilmiş bəzi məsələlər yenidən təkrarlanır.
Seçki terminologiyası dəqiqləşdirilməyib. Bəzi terminlər üçün iki ad istifadə edilir. Məcəllədə abbreviaturalardan yaxşı istifadə edilməyib.
Bundan əlavə, Seçki Məcəlləsi və seçki ilə əlaqəli digər qanunvericilik arasında ziddiyyətlər və uyğunsuzluqlar mövcuddur. Seçki Məcəlləsinin mürəkkəbliyi və təkrarçılığı seçki subyektlərində çaşqınlıq yaradır və vətəndaşların seçki hüquqlarının həyata keçirməsinə mane olur.
Sadələşdirilmiş və anlaşıqlı yeni seçki qanunun qəbulu istiqamətində heç bir addım atılmayıb.[15]

3. Seçkilərin qərəzsiz qurum tərəfindən təşkil edilməsi

Tövsiyyə:

Seçki komissiyaları seçki üzrə vacib maraqlı tərəflərin hamısının etibarını qazanmalıdır. Bu məqsədə nail olmaq üçün komissiyalarda hökümətyönümlü qüvvələr üstünlük təşkil etməməlidir. Təyinatların aşkarlığı və komissiyaların işinin şəffaflığı seçki prosesinin legitimliyini təsis etmək üçün labüddür.[16] Seçki komissiyalarının qərəzsiz və müstəqil fəaliyyət göstərməsi üçün həm ATƏT/DTHİB, həm AŞ Venesiya Komissiyası, həm də AŞ Nazirlər Komitəsi bəzi addımların atılmasına çağırıb.[17] Bununla yanaşı Birgə Tövsiyələrdə seçki komissiyalarının təşkilinin digər aspektlərinə də diqqət ayrılması tövsiyə edilib.[18]

i) Seçki Məcəlləsi seçki komissiyasının sədrlərinə geniş səlahiyyətlər verib. Ona görə də komissiya sədrlərin müxtəlif siyasi partiyaları təmsil edən şəxslərdən təyin edilməsi üstün tutulmalıdır. Bu tədbir seçki komissiyalarının işinə olan etibarı artıracaq. Hakim siyasi partiya seçki administrasiyası boyunca sədr vəzifəsini inhisara almamalıdır.

---

[12] Seçki Məcəlləsi üçün bax (Azərbaycan dilində): http://e-qanun.az/code/17 və (ingilis dilində): http://www.msk.gov.az/uploads/qanunvericilik/election_code_eng.pdf [Accessed 14 August 2017]
[13] Avropa Şurası Venesiya Komissiyası və ATƏT/DTİHB-in birgə tövsiyələri http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2004)016rev-e
[14] Yenə orada
[15] Parlament Seçki Məcəlləsini 27 may 2003-cü ildə qəbul edib və 30 iyun 2003-cü ildə dərc edildikdən sonra Məcəllə qüvvəyə minib. Bundan sonra, Seçki Məcəlləsinə əlavə və dəyişikliklər edilib. Lakin bu düzəlişlərin heç biri Məcəllənin sadələşdirilməsi istiqamətində olmayıb.
[16] AŞ Venesiya Komissiyası və ATƏT/DTİHB Birgə tövsiyyələr (2004) §§ 9-10
[17] AŞ Nazirlər Komitəsi (2017) *H46-4 Namat Aliyev group v. Azerbaijan* [Online]. Available: http://hudoc.exec.coe.int/eng?i=CM/Del/Dec(2017)1280/H46-4E [Accessed 14 August 2017]
[18] 2004 Birgə Tövsiyyələr, § 12

ii) Seçki Məcəlləsi seçki komissiyası üzvlərinin namizədliyinin irəli sürülməsi və təyin edilməsi məsələlərində aydın və şəffaf qaydalar nəzərdə tutmalıdır.

iii) Sədr və katib istisna olmaqla Dairə Seçki Komissiya üzvləri və Məntəqə Seçki Komissiyanın bütün üzvləri yalnız seçki dövründə və seçici siyahısının dövri yenilənməsi ilə bağlı fəaliyyət göstərirlər. Ona görə də onlar üçün 5 illik səlahiyyət müddəti nəzərdə tutulması çoxdur və bu müddəa dəyişdirilməlidir. Bu seçki xərclərini azaldacaq.

iv) MnSK üzvlüyü üçün yaşayış yeri məhdudiyyəti İşğal Edilmiş Ərazilərdən olan məcburi köçkünlərdən formalaşan seçki dairələri üçün süni və qeyri-mütənasibdir. Bu müddəa dəyişdirilməlidir.

v) Bundan əlavə, seçki komissiyalarının qərarlarının qəbul edilməsi üçün 2/3 nisbətində yetərsay (kvorum) və 2/3 səs çoxluğu tələb edilməlidir. Bu seçki komissiyalarını səmərəli etmək üçün yüksək səviyyədə konsensus tələb edəcək.

İcra vəziyyəti:

Seçki Məcəlləsinə əsasən seçkilərin təşkili və keçirilməsi üçün üç pilləli seçki komissiyaları – Mərkəzi Seçki Komissiyası (MSK), Dairə Seçki Komissiyası (DSK) və Məntəqə Seçki Komissiyası (MnSK) təsis edilir. Seçki komissiyaları daimi əsaslarla və kollegial formada fəaliyyət göstərirlər.[19]

MSK ümumölkə üzrə yaradılır, 18 üzvdən ibarətdir və onun üzvləri Milli Məclis tərəfindən seçilir. MSK-nın 6 üzvünün namizədliyini parlamentin çoxluq siyasi partiyası, 6 üzvünün namizədliyini müstəqil deputatlar, 6 üzvünün namizədliyini isə parlamentin azlıq siyasi partiyaları irəli sürür. Müstəqil deputatların bir namizədi çoxluq siyasi partiyası, digər namizədi isə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır.[20]
DSK 9 üzvdən, MnSK isə 6 üzvdən ibarətdir. Bu qurumların da üzvləri 3\1 prinsipi ilə MSK-nın formalaşdığı qaydada yaranırlar. DSK üzvlərini MSK, MnSK üzvlərini isə DSK təyin edir.[21]
Seçki komissiyalarının sədrləri parlamentin çoxluq siyasi partiyasının üzvləri sırasından seçilir. Seçki komissiyaları onun üzvlərinin 2/3-si təyin edildikdə və təyin edilmiş üzvlərin 2/3-si iştirak etdikdə səlahiyyətli sayılır. İştirak edən üzvlərin sayına uyğun olmaqla seçki komissiyalarının qərarları 2/3 səs çoxluğu ilə qəbul edilir.[22]

Beynəlxalq təşkilatlar tərəfindən 2002-ci ildən başlayaraq, seçki komissiyalarının tərkibinə dəyişikliklər edilməsi, komissiyaların qərəzsiz və müstəqilliyinin təmin edilməsinə dair islahatlar keçirilməsi ardıcıl olaraq tövsiyə edilsə də, hakimiyyət bu çağırışlara əməl etməyib.
Azərbaycanda seçkilərin keçirilməsinə məsuliyyət daşıyan seçki komissiyaları beynəlxalq standartlara uyğun olaraq müstəqil və qərəzsiz deyil.

4. Namizədlərin səmərəli qeydiyyatı mexanizmi

Tövsiyə:

ATƏT/DTİHB 9 oktyabr 2013-cü il prezident seçkisi üzrə yekun hesabatında prezidentliyə namizədlər üçün tələb edilən təhsil və yaşayış yeri ilə bağlı məhdudiyyətlərin ləğv edilməsini tövsiyə edib.[23] Bundan əlavə, ATƏT DTİHB seçki sənədlərinin yoxlanılması mexanizminin sadələşdirilməsi və bu prosesində şəffaflığının artırılmasını tövsiyə edib. Eləcə də yoxlama prosesində namizədlərin

[19] Seçki Məcəlləsi, Maddə 18.1
[20] Seçki Məcəlləsi, Maddə 24
[21] Seçki Məcəlləsi, Maddə 30
[22] Seçki Məcəlləsi, Maddə 19.3, 19.9, 19.10
[23] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 9

səmərəli iştirakının təmin edilməli olduğu qeyd edib. Həmçinin qərarların əsaslandırılması tələbinin vacib olduğu vurğulanıb. Xırda və texniki çatışmazlıqların namizədliyin qeydiyyatından imtina üçün əsas olmamalı olduğu bildirilib.[24]

İcra vəziyyəti:

Mövcud qanunvericilik namizədlərin qeydiyyatının yalnız bir mexanizmini – imza mexanizmini tanıyır. Başqa sözlə, qüvvədə olan qanunvericilik depozit mexanizmini hazırda nəzərdə tutmur (2008-ci il düzəlişləri vasitəsilə depozit sistemi qanunvericilikdən çıxarılıb).[25] İmza mexanizmi ilə bərabər digər seçki sənədlərinin (gəlirlər, mülkiyyət və namizəd barədə digər məlumatlar) düzgünlüyü də təmin edilməlidir.[26] Mövcud qanunvericilik qəsdən buraxılmayan səhvlərin yaxud digər texniki səhvlərin düzəldilməsi imkanını tanıyır. İmza vərəqələrinin və digər seçki sənədlərinin yoxlanılması mexanizmi mürəkkəb, qeyri-aydındır və bir sıra təkrarçılıqlara yol verilir.[27] Qeyd edilən çatışmazlıqlar seçki komissiyalarına bu müddəalardan sui-istifadə etməyə şərait yaradır.[28]
Namizədliyin qeydiyyata alınmasından imtina edilməsinin əsasları mürəkkəb və qeyri-müəyyəndir və bir sıra hallarda təkrarçılığa yol verilir. Ümumilikdə götürdükdə, imza vərəqələrində və digər seçki sənədlərində pozuntuların edilməsi yaxud lazımi sayda imzaların toplanılmaması namizədliyin qeydə alınmaması üçün əsasdır.[29]
Deputatlığa namizədlərin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır. Parlament seçkilərində bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər.[30]
Prezidentliyə irəli sürülən namizədin müdafiəsi üçün 40 mindən az olmayan sayda seçici imzası toplanılmalıdırlar. 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplanmalıdır. Prezident seçkilərində bir seçici yalnız bir namizədin müdafiəsi üçün imza ata bilər.[31]

Hökümət seçkilərdə namizədlərin qeydiyyatı ilə bağlı qaydaların sadələşdirilməsi və səmərələşdirilməsi üçün heç bir addım atmayıb. Namizədlərin əsassız qeydiyyata alınmasından imtinaya şərait yaradan qanunvericilik və praktika qalmaqda davam edir. Başqa sözlə, hökümət beynəlxalq qurumların namizədlərin qeydiyyatı ilə əlaqədar tövsiyələrini ardıcıllı olaraq gözardı edir.
Azərbaycanda namizədlərin yaxud seçki qurumlarının səmərəli qeydiyyatı sistemi mövcud deyil. Bunun nəticəsində seçkilərdən əvvəl bir çox müxalif və müstəqil namizədlər müvafiq hakimiyyət orqanları tərəfindən əsassız olaraq seçkilərdə namizəd kimi iştirak etmək hüququndan məhrum edilir.

5. Seçki şikayətləri və səmərəli müdafiə vasitələri

Tövsiyə:

ATƏT/DTİHB-nin 2010-cu il parlament və 2013-cü il prezident seçkiləri üzrə hesabatlarında qeyd edilir ki, Seçki Məcəlləsinə uyğun əsaslandırılmış qərarlar qəbul edilməsi məqsədilə seçki komissiyaları və məhkəmələr şikayətlərə aşkar və şəffaf qaydada baxmalı və şahid ifadələri daxil olmaqla bütün sübutları araşdırmalıdır.[32]

[24] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 10
[25] Seçki Məcəlləsi, Maddə 56-57; Parlament 02 iyun 2008-ci il qanun düzəlişi ilə depoziti Seçki Məcəlləsindən xaric etdi. Həmin Qanun üçün bax (Azərbaycan dilində): http://e-qanun.az/framework/14930
[26] Seçki Məcəlləsi, Maddə 58-59
[27] Seçki Məcəlləsi, Maddə 59-60
[28] Ogtay Tahirov v. Azerbaijan, no. 31953/11, §§ 63-66, ECHR 2015 [Online]. http://hudoc.echr.coe.int/eng?i=001-155093
[29] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 10
[30] Seçki Məcəlləsi, Maddə 147
[31] Seçki Məcəlləsi, Maddə 181
[32] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 16-18; ATƏT/DTİHB Yekun Hesabat 2010 səhifə 22:

Bundan əlavə, seçki komissiyalarında təsis edilmiş ekspert qruplarının üzvləri seçki komissiyasından asılılığı olmayan və onunla qarşılıqlı maraqları olan şəxslərdən təyin edilməməli və həmin qrupların üzvləri kənardan təyin edilməli, onların seçki komissiyalarından asılılığı olmamalı və ekspert olan şəxslər hüquqşünaslıq sahəsində lazımi səviyyədə mütəxəssis olmalıdır.[33] Eləcə də şikayətə baxılma mexanizmi dəyişdirilməli və şikayət bir ekspert tərəfindən deyil, ekspertlər heyəti tərəfindən araşdırılmalıdır. Şikayətçilərin araşdırmada şəxsən iştirakı təmin edilməli, onlar şikayəti barədə izahat verməli və sübutların araşdırmasında iştirak etməlidir. Ekspert qrupunun araşdırması müşahidəçilər üçün açıq olmalıdır. Bununla bərabər şikayətçilərin həlledici arqumentləri məhkəmə baxışı zamanı araşdırılmalı və onunla bağlı məhkəmənin yazılı qərarlarında məhkəmənin mövqeyi (təsdiqedici yaxud inkaredici olmasından asılı olmayaraq) əks edilməlidir. Məhkəmələr qərarlarının hüquqi əsaslarını izah etməlidir. Şikayətçilərin əlavə sübutlat haqqında vəsatətləri rədd edildikdə buna dair qərardadlar qanuna uyğun əsaslandırılmalıdır. Bununla bərabər MSK-nın fəaliyyətində yol verdiyi prosessual çatışmazlıqlara adekvat münasibət bildirilməli, seçki məsələləri ilə bağlı prokurorluq tərəfindən araşdırma aparıla bilinməsi üçün ətraflı müddəalar nəzərdə tutulmalıdır.[34]

İcra vəziyyəti:

Hökümət seçki şikayətlərinin araşdırılması ilə bağlı 2008-ci ildə seçki komissiyaları yanında ekspert qruplarının təsis edilməsini islahat kimi təqdim edir.[35] Ancaq ekspert qruplarının formalaşdırılmasında bu qrupların müstəqilliyi və qərəzsizliyi təmin edilməyib.[36]
Bundan əlavə, 2015-ci il parlament seçkilərinin təcrübəsi göstərir ki, seçki komissiyaları və məhkəmələr şikayətlərin araşdırılması sahəsində ciddi irəliləyişə nail olmayıblar. Məsələn, bu seçkilər zamanı inzibati məhkəmə tərəfindən təmin edilmiş seçki şikayəti olmayıb.

Seçkilərdə iştirak edən namizədlər və digər seçki subyektləri güman edilən seçki pozuntularına dair şikayətlərinin araşdırılması üçün səmərəli müdafiə vasitələrinə malik deyillər. Hökümət seçki məsələlərində ədalət mühakiməsi hüququnun təmin edilməsi istiqamətində səmərəli islahatlar aparmayıb. Aparılan bəzi "islahatlar" isə natamamdır.

6. Seçkiqabağı maliyyələşmə

Tövsiyə:

Şəffaflığın və məsuliyyətin artırılması məqsədilə seçki maliyyəsi hesabatları təqdim edildikdən dərhal sonra dərc edilməlidir. Müstəqil peşəkar qurum ədalətli və obyektiv meyarlar əsasında seçki kampaniyası hesabatlarının auditini aparmalıdır. Bundan əlavə, seçkilərin publik maliyyələşdirilməsi müddəasının geri qaytarılması nəzərdən keçirilməlidir.[37]
Seçki maliyyəsinə dair müddəalar mürəkkəbdir və sadələşdirilməsi nəzərdən keçirilməlidir.[38]
İanə verə biləcək subyektlərin dairəsinə qoyulan məhdudiyyətlər yenidən nəzərdən keçirilməlidir. Məsələn, QHT-lər və vətəndaşlığı olmayan şəxslərə qoyulan məhdudiyyətlər demokratik cəmiyyətdə zəruri deyil.

[33] Yeni orada
[34] Yeni orada
[35] AŞ Nazirlər Komitəsi (2015) Nemət Əliyev Azərbaycana qarşı (qrup işi) http://hudoc.exec.coe.int/eng?i=CM/Del/Dec(2015)1222/1
[36] Yenə orada
[37] ATƏT/DTİHB Yekun Hesabat 2013
[38] ATƏT/DTİHB Yekun Hesabat 2013

İcra vəziyyəti:

Siyasi partiyaların publik maliyyələşməsi mövcud deyil (əvvəllər mövcud idi və hazırda ləğv edilib);[39]
Siyasi partiyalar və fərdi namizədlər seçki fondu yaratmalıdırlar. Seçki fondu bank hesabı formasında olmalı və ianələr yalnız bu hesab vasitəsilə aparılmalıdır. Seçki fondu ilə bağlı seçki kampaniyası dövründə aralıq hesabat və seçkilərdən sonra yekun hesabat verilməlidir; MSK seçki kampaniyasının maliyyəsi ilə bağlı dövri hesabatlar yaymalıdır. Amma faktiki olaraq yaymır;[40]
Seçki maliyyəsinin auditi aparılmır və seçilmiş vəzifəli şəxslərin maliyyə vəziyyəti (gəlir bəyannaməsi) barədə ictimaiyyətə məlumat verilmir;[41]
İanə verə biləcək fiziki və hüquqi şəxslərə məhdudiyyətlər mövcuddur (digərləri ilə bərabər, qeyri-hökümət təşkilatları, xeyriyyə cəmiyyətləri, dini icmalar, vətəndaşlığı olmayan şəxslər və s).[42]

Azərbaycanda seçki maliyyələşməsi beynəlxalq standartlarla ziddiyyət təşkil edir. Xüsusilə maliyyələşmənin şəffaflığı ilə bağlı heç bir lazımi tədbir görülməyib. Bundan əlavə, seçkilərin publik maliyyələşməsinin olmaması Azərbaycan kontekstində siyasi partiyaları əlverişsiz vəziyyətə salır.

7. Seçkiqabağı təşviqat kampaniyası

Tövsiyə:

Seçkiqabağı təşviqat üzrə kampaniya mühitini genişləndirmək üçün dövlət orqanları tərəfindən toplanış yerlərinə qoyulan məhdudlaşdırıcı yanaşma yenidən nəzərdən keçirilməlidir. Seçki Məcəlləsi ilə Sərbəst Toplaşmaq haqqında qanun arasında toplanışlara dair xəbərdarlıq və toplanışların keçirilməsinə dair ziddiyətlər aradan qaldırılmalı və namizədlərdən yalnız toplantını keçirməklə bağlı hakimiyyət orqanlarını xəbərdar etmək tələb edilməlidir.[43]
Rəsmi orqanlar seçki kampaniyasının hədələnmə və əvəzçıxma qorxusundan azad atmosferdə keçirilməsi üçün əlavə tədbirlər görməlidir. Hakimiyyət orqanları və siyasi partiyalar dövlət qulluqçularını, kampaniya fəallarını və digələrini hakim partiyanın toplanışlarında iştiraka məcbur etməkdən çəkinməli, eləcə də müxalifətin kampaniya toplantılarını pozmaqdan çəkinməlidirlər.[44]
Kampaniya dövründə əsas hüquqlar, o cümlədən ifadə və toplanış azadlıqlarına hörmət təmin edilməlidir. Seçki prosesinə yerli hakimiyyət orqanları tərəfindən edilən əsassız müdaxilələrin, xüsusilə azad və ədalətli seçki kampaniyası üçün şəraitin təmin edilməməsi, inzibati resurslardan müəyyən namizədlərin lehinə sui-istifadə edilməsi kimi halların aradan qaldırılması üçün tədbirlər görülməlidir. [45]
Seçki kampaniyası müddətləri artırılmalıdır. 23 günlük müddət namizədlərin seçki kampaniyası apara bilməsi – seçicilərə çatması və öz ideyalarını onlara çatdıra bilməsi üçün yetərli deyil.
Özəl media tərəfindən namizədlər və partiyalar barəsində bərabərlik hüququna uyğun olaraq məlumatların verilməsi təmin edilməlidir;

[39] 18 iyun 2010-cu il tarixli Qanun dəyişikliyi ilə Seçki Məcəlləsindən xaric edilib.
[40] Seçki Məcəlləsi, Maddə 90-94
[41] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 12
[42] Seçki Məcəlləsi, Maddə 90.2
[43] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 10-12
[44] Yenə orada
[45] Yenə orada

İcra vəziyyəti:
Seçki kampaniyasını seçki subyektləri apara bilər. Bir sıra fiziki və hüquqi şəxslərin seçki kampaniyası aparması qadağan edilib (məsələn, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, seçki komissiyasının üzvləri, dövlət qulluqçuları, hərbçilər və digərləri).[46]
Seçki kampaniyası seçki gününə 23 gün qalmış başlamalı və seçki gününə 24 saat qalmış başa çatmalıdır (əvvəllər daha uzun idi, 2010-cu ildən qısaldılıb).[47]
Mediada ödənişsiz kampaniya aparma 60 qeydə alınmış namizədi olan partiyalara verilir. Ancaq həm televiziya-radio, həm də çap mediasında ödənişsiz kampaniya üçün şərtlər məhduddur.[48] MSK və yerli icra hakimiyyətləri kampaniya üçün toplanış yerləri ayırır. Lakin həmin yerlər adətən məhdud xarakterli və qeyri-kafi olur.[49] Praktikada ödənişli kampaniyanın şərtləri ağırdır. Seçki kampaniyası çıxışlarında zorakılıq təbliğatına, diffamasiyaya, nifrət nitqinə, intellektual mülkiyyət hüququnun pozuntusuna yol verilmir.[50] Bununla bərabər, ölkədə ifadə, toplanış və birlik azadlıqlarına qoyulan əsassız məhdudiyyətlər müxtəlif siyasi partiyalar və namizədlərin kampaniya keçirməsinə maneələr yaradır. Bundan əlavə, namizədlərin, seçki kampaniyası iştirakçılarının, seçicilərin hakimiyyət orqanları yaxud hakim partiyanın namizədlərinin tərəfdarları tərəfindən hədələnməsinə dair hallar geniş yayılıb.

Hökümət qeyd edilən tövsiyələr istiqamətində heç bir addım atmayıb. Əksinə 2003-cü il seçkilərindən hazırkı dövrə kimi seçki kampaniyasının müddətini azaldıb. Azad və ədalətli seçki mühitinin təmin edilməsi istiqamətində adekvat tədbirlər görülməyib. Seçki prosesinə yerli dövlət orqanları, hüquq mühafizə orqanları və digər şəxslər tərəfindən əsassız müdaxilələrə yol verməyə davam edirlər.
Azərbaycanda seçki kampaniyası dövründə normal fəaliyyətinin təmin edilməsi üçün azad və ədalətli seçki mühiti yaradılmayıb.

8. Yerli seçki müşahidəçiliyi

Tövsiyə:

Rəsmi orqanlar yerli müşahidə qruplarının əsassız məhdudiyyətlər qoyulmadan qeydiyyatdan keçməsini, toplanış və birlik azadlıqlarına maneələr yaradılmadan öz fəaliyyətlərini həyata keçirmələrini təmin etməlidir.[51]
Yerli və beynəlxalq müşahidəçilər tərəfindən bütün seçki prosesini keyfiyyətli və maneəsiz müşahidə etməsini, xüsusilə səsvermə, səslərin sayılması və nəticələrin protokollaşdırılması prosesində seçki məntəqələri daxilində azad və maneəsiz hərəkətini təmin etmək üçün müvafiq tədbirlər görülməlidir.

İcra vəziyyəti:

Seçki komissiyalarının fəaliyyəti ictimaiyyət üçün aşkar olmalıdır. Aktiv seçki hüququna malik olan vətəndaşlar müşahidəçi olmaq hüququna malikdirlər. Onlar seçki gününə müəyyən müddət qalana kimi müşahidəçi kimi seçki komissiyasında qeydiyyatdan keçməlidirlər. Seçki komissiyasının

[46] Seçki Məcəlləsi, Maddə 74
[47] Seçki Məcəlləsi, Maddə 75.2
[48] Seçki Məcəlləsi, Maddə 80.1
[49] ATƏT/DTİHB, Yekun Hesabat 2013 və Yekun Hesabat 2010
[50] Seçki Məcəlləsi, Maddə 88
[51] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 19-20

fəaliyyətinin işıqlandırılmasında media iştirak edə bilər.[52] Xarici müşahidəçilər MSK-nın müvafiq dəvəti ilə gələ bilərlər.[53]
Müşahidəçilər seçki komissiyalarının fəaliyyəti ilə əlaqədar olan istənilən məsələ ilə əlaqədar müşahidə apara bilərlər. Seçki Məcəlləsi müşahidəçilərin hüquqlarının yekun olmayan siyahısını nəzərdə tutur, eləcə də müşahidəçilərin vəzifələrini müəyyən edir. Müşahidəçilərin başlıca vəzifəsi seçki komissiyasının fəaliyyətinə mane ola biləcək hərəkətlər etməmək və seçicilərin iradəsini ifadə etməsinə təsir etməməkdən ibarətdir.[54] Praktikada seçki komissiyalarının vəzifəli şəxsləri, xüsusilə sədrlər yerli müşahidəçilərə mane olurlar.

Bir çox seçki müşahidəsi təşkilatlarının hesabatlarına görə Azərbaycanda keçirilən seçkilərdən ən böyük problemlərdən biri müşahidəçilərə seçki komissiyalarının rəsmiləri və digər namizədlərin (xüsusilə hakim partiyanın namizədinin) tərəfdarları tərəfindən müdaxilə edilməsidir. Rəsmi orqanlar belə əsassız müdaxilələrin qarşısı alınması istiqamətində heç bir səmərəli addımlar atmayıblar. Ölkədə seçki müşahidəsi aparan təşkilatlara qarşı təzyiqlər var və onlardan bəziləri qeydiyyata alınmır.

9. Seçicilərin qeydiyyatı

Tövsiyə:

MSK prosesin bütün aspektləri üzrə aydın vəzifə bölgüsünü göstərilməklə, seçici siyahılarının təsdiqlənməsinin və yenilənməsinin bütün prosessual və əməli aspektlərini tənzimləyən müfəssəl təlimatlar hazırlamalıdır.[55]
MSK siyahıya əlavə edilmiş və siyahıdan çıxarılmış seçicilərin sayının ətraflı təhlili daxil olmaqla, seçici siyahıların təsdiqlənməsi və yenilənməsinə dair ilkin və yekun informasiyalar dərc edilməsi yolu ilə seçici qeydiyyatı prosesinin şəffaflığını artıran tədbirlər görməlidir;
Əlavə seçici siyahıları barədə məlumat sistemli şəkildə toplanmalı və daimi seçici siyahısına daxil edilməlidir.

İcra vəziyyəti:

Beynəlxalq təşkilatların tövsiyyəsinə görə, seçici siyahısı daimi əsaslarla mövcud olmalı və onlar azı ildə bir dəfə olmaqla müntəzəm olaraq yenilənməlidir. Seçici siyahıları dərc edilməlidir. Qeydiyyata alınmayan seçicilərin məhkəmə nəzarətindən istifadə etmək imkanı tanınmalıdır.[56]
Azərbaycan seçki qanunvericliyinə görə vahid seçici siyahısı təşkil edilir və buna MSK cavabdehlik daşıyır.
Seçici siyahısı üzrə qeydiyyatı seçici vəsiqələrinin verilməsi təsdiq edir. Seçici siyahıları yaşayış yeri və olduğu yer üzrə qeydiyyata əsaslanır və qeydiyyat orqanlarının verdiyi məlumat əsasında yenilənir. Aktiv seçki hüququ olan şəxslərin hamısı seçici siyahısına qeyd edilir.
Ancaq dəqiqləşdirmə üzrə vahid Bələdçinin olmaması nəticəsində dəqiqləşdirmənin necə aparıldığı bəlli deyil. 18 yaşından yuxarı əhalinin rəsmi statistik sayı ilə seçici siyahısında olan şəxslərin sayı arasında ziddiyyətlər olur (sonunculardа say aşağı olur).[57] Seçki komissiyaları, o cümlədən MSK siyahıyaalmanın metodologiyası barədə ictimaiyyətə məlumat vermir.

[52] Seçki Məcəlləsi, Maddə 40-41
[53] Seçki Məcəlləsi, Maddə 44
[54] Seçki Məcəlləsi, Maddə 42
[55] ATƏT/DTİHB Yekun Hesabat 2013, səhifə 8-9
[56] Avropa Şurası Venesiya Komissiyası, Seçki Məsələləri üzrə Yaxşı Təcrübələr Kodeksi, səhifə 6 - http://www.venice.coe.int/webforms/documents/default.aspx?pdffile=CDL-AD(2002)023rev-e
[57] Seçki Məcəlləsi, Maddə 45-47

Digər bir problem isə qeydiyyatdançıxma əsasında ölkənin digər yerlərində səsverənlərlə bağlıdır. Çap edilmiş və verilmiş qeydiyyatdançıxma vəsiqələri arasında ciddi fərqlər meydana çıxır. Seçici qeydiyyatı ilə bağlı ən ciddi problem ondan ibarətdir ki, Azərbaycanda müstəqil dövrü üçün xarakterik olan əhalinin vilayətlərdən Bakı meqapolisinə doğru yığışmasında müşayiət edilən daxili miqrasiyanın qeydiyyatının aparılmamasıdır. Daxili miqrasiya daha çox iş miqrasiyası kimi təzahür edir. Daxili miqrasiyanın ən böyük çatışmazlıqlarından biri budur ki, vilayətlərdən mərkəzə gələn şəxslərin qeydiyyatı vilayətlərdə qalmağa davam edir. Həmin şəxslər illərdir daimi əsaslarla Bakı şəhərində yaxud onun ətraf ərazilərində yaşayırlar. Ancaq onların qeydiyyatı hər hansı digər bölgədə qalmaqda davam edir. Həmin şəxslərin vergi, sosial müdafiə və s kimi qeydiyyat məsələləri də vilayətlərdə qalır. Belə olan halda onlar hələ də vilayətdə qeydiyyatda qalırlar və bununla da seçici siyahısına artıq yaşamadıqları yerdə qeydə salınırlar. Bununla da onlar faktiki olaraq seçki hüquqlarını həyata keçirə bilmirlər. Daxili miqrasiyanın qeydiyyatının aparılmadığı şəraitdə bu problem qalmaqda davam edir.

Seçici qeydiyyatı ilə bağlı digər problem isə İşğal Edilmiş Ərazilərdən olan məcburi köçkünlərlə bağlıdır. Həmin şəxslərin müvəqqəti məskunlaşdığı yerlərdə qeydiyyat işləri lazımi səviyyədə aparılmır və bu hal məcburi köçkünlərin qeydiyyatı ilə bağlı çətinliklər yaradır.

MSK seçici qeydiyyatı ilə bağlı hər hansı təlimat hazırlamayıb. Bundan əlavə, hökümətin daxili miqrasiya və onun qeydiyyatı ilə əlaqədar hər hansı bir siyasəti mövcud deyil. Seçici siyahılarının təsdiqlənməsi prosesi barədə məlumatlar ictimaiyyətə bəyan edilmir.

Seçici qeydiyyatının vahid, ağlabatan və ictimaiyyətə bəlli yolları bəlli deyil. Seçkilər öz başlıca məqsədi olan aktiv seçki hüququna malik şəxslərin, yəni seçicilərin qeydiyyatının legitimliyi təmin edilmədən həyata keçirilir.

IV. Nəticələr və Təkliflər

SMDT-nin Azərbaycanda seçkilər üzrə beynəlxalq tövsiyələrin icra vəziyyətinin dəyərləndirilməsi üzrə yekun nəticəsi:

Yuxarıda seçki üzrə tövsiyələrin icra vəziyyəti ilə bağlı aparılan təhlillər göstərir ki, hazırda Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi üçün səmərəli seçki qanunvericiliyi və praktikası mövcud deyil. Bu isə ilk növbədə siyasi hakimiyyətin bu yöndə siyasi iradəsinin olmamasından irəli gəlir.

SMDT Azərbaycanda seçkilər üzrə beynəlxalq tövsiyələrin icrası yönündə aşağıdakı tədbirləri təklif edir:

- Azərbaycan siyasi hakimiyyəti seçki qanunvericiliyinin təkmilləşdirilməsi üzrə maraqlı siyasi tərəflərin və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə ictimai müzakirələr və hüquqi təşəbüslərin təmin edilməsinə siyasi iradə nümayiş etdirməlidir;
- Azərbaycan siyasi hakimiyyəti 2018-ci il prezident seçkiləri elan olunanadək əlverişli siyasi mühitin yaradılması üçün ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək hüququ üzrə hüquqi-siyasi məhduiyyətlərin aradan qaldırılması, fərqli siyasi baxışlarına görə təqiblərin dayandırılması və siyasi motivlərlə həbs olunan şəxslərin azad edilməsini təmin etməlidir;

- Azərbaycan Respublikası Milli Məclisi Azərbaycanda seçki idarəşiliyinə etimadı yaratmaq məqsədilə Avropa İnsan Hüquqları Məhkəməsinin seçki hüququ pozuntuları üzrə qərarlarında adı çəkilən seçki komissiyalarının, o cümlədən bu qərarlara görə məsuliyyət daşıyan Mərkəzi Seçki Komissiyası üzvlərinin seçki idarəçiliyindən kənarlaşdırlmasını təmin etməlidir;
- Avropa Şurası Baş Katibi, Avropa Şurası Parlament Asambleyası və Avropa Şurası Nazirlər Komitəsi Avropa Şurası Venesiya Komissiyasının ATƏT/DTİHB ilə birgə Azərbaycan Seçki Məcəlləsi üzrə birgə tövsiyyələri və Avropa İnsan Hüquqları Məhkəməsinin seçki hüququ pozuntuları üzrə qərarlarının icra vəziyyətini araşdırmalı və Azərbaycan hakimiyyətini seçki prosesinin islahatlarına təzyiq etməlidirlər;
- ATƏT-in Nazirlər Şurası, ATƏT Parlament Assambleyası və ATƏT-in Daimi Şurası ATƏT/DTİHB-in Seçki Müşahidə Missiyaları tərəfindən 2003-2013-cü illərdə keçirilmiş seçkilər üzrə tövsiyyələrin icra vəziyyəti ilə bağlı xüsusi dəyərləndirmə aparmalı və Azərbaycan hakimiyyətinin ATƏT/DTİHB ilə əməkdaşlığını səy göstərməlidir;
- Avropa Komissiyası və Avropa Parlamenti Azərbaycanda seçki prosesinin təkmilləşdirilməsi məqsədilə Avropa Şurası Venesiya Komissiyası və ATƏT/DTİHB tərəfindən irəli sürülmüş tövsiyyələrin icra vəziyyətini qiymətləndirməli və Azərbaycan hakimiyyəti ilə ikitərəfli müzakirələrdə prioritetə çevirməlidir;

V. Əlaqə

Telefon: (+994 50) 333 46 74

E-poçt: info@smdtaz.org

Veb: www.smdtaz.org